# Yaşayan xatirələr




**Əsər var ilk oxunuşdan adamı özünə cəlb etmir, əsər də var, o qədər maraqlı olur ki, adam ayrılmayıb axıra qədər oxuyub qurtarmaq istəyir. Məhz Azərbaycan Respublikası Ağsaqqallar Şurasının və Respublika Ziyalılar Cəmiyyətinin üzvü, "Azərbaycan Bayrağı", "Vətən" fəxri media mükafatları laureatı, şərqşünas alim Cümşüd Muradovun 2016-cı ildə nəşr olunmuş "Unudulmaz xatirələr" adlı kitabı ikinci qism kitablardandır.**

Mən şəxsən Cümşüd Muradovu görməmişəm, yalnız onu mətbuat səhifələrində dərc olunmuş ara-sıra yazılarından qiyabi tanıyırdım. Amma xatirələr kitabını oxuyandan sonra, onun haqqında təəssüratlarım daha da artdı. Bilmədiklərimi öyrəndim. Xatirələrindən də məlum oldu ki, o, çox baməzə, yüksək insani keyfiyyətlərə malik, səxavətli, xeyriyyəçi, humanist, torpağa, elinə, obasına bağlı, dostluğa, yoldaşlığa sadiq nəsli-nəcabətli bir şəxsiyyətdir. Doğrudan da, professor Qəzənfər Paşayevin yazdığı kimi, bu bənzərsiz bir əsərdir.

Cümşüd Muradov haqqında qısa olaraq qeyd edək ki, o, Abşeronun Qala kəndində zəhmətkeş bir ailədə dünyaya göz açmış, Əzizbəyov (indiki Xəzər) rayonunda yerləşən orta məktəbdə təhsil almış, ərəb və fars dillərinə meyilli olduğuna görə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) şərqşünaslıq fakültəsini fars dili ixtisası üzrə bitirmişdir. Elm fədailəri Əli Sultanlıdan, Cəfər Xəndandan və başqa alimlərdən dərs almışdır. Ali məktəbi bitirdikdən sonra 50 ilə yaxın N.Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyində çalışmışdır. Onun həyat yolu həmin kitabda ətraflı olaraq öz əksini tapır.

"Unudulmaz xatirələr" kitabında ən maraqlı hissələrdən biri "Qala kəndi - ömrümün yenilməz qalası" adlanır. Müəllif burada Qala kəndinin keçmişindən, indisindən, maraqlı adət-ənənələrindən, xüsusilə də toy mərasimlərinin necə keçirildiyindən, məşhur musiqiçilərindən və son dövr orada yaradılmış çox maraqlı muzeydən genişliyi ilə söhbət açır.

Qala oykoniminin tarixi bəzi mənbələrdə XIV əsrdə tikilmiş qala istehkamla bağlıdır. Bəzi müəlliflərə görə, XVIII əsrdə Nadir şah bir sıra kəndlərin əhalisini özünün saldırdığı Nadirqala adlı yaşayış yerində məskunlaşdırmışdı. Sonralar əhali kəndi Qala adlandırmışdır.

Cümşüd Muradov isə bu məqalədə Qalanın tarixinin XVI-XIX əsrin əvvəllərinə aid edildiyini göstərir. Müəllif Qala haqqında çoxlu maraqlı məlumat verir.

Qaladakı muzey xüsusi bir maraq doğurur. Bu muzeyin təşəbbüskarı Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevadır.

Kitabda Cümşüd müəllim özünün uşaqlıq illəri, məktəb illəri, tələbəlik illəri, Ədəbiyyat Muzeyində fəaliyyəti haqqında geniş bir həyat salnaməsi verir.

Kitabda "Səfərlərim" adlı hissə müəllifin İran və Əfqanıstan səfərlərindən bəhs edilir. O, İranda 1970-1972-ci illərdə işləmişdir. Müəllif özü yazır ki, ezamiyyətdə olarkən İranın şimalından cənubuna qədər bir çox şəhər və kəndlərində işləmişəm... Çoxlu hadisələrin və şirin söhbətlərin şahidi olmuşam.

Müəllifin şahid olduğu hadisələr bütünlüklə kitabda əksini tapır. Çox maraqlı məlumatlar var...

Cümşüd müəllim bir tərcüməçi kimi İranda işləyərkən Xorasanda Nadir şah Əfşarın qəbrini, Tusda İran şairi Əbülqasım Firdovsinin məzarını, Nişapurda məşhur rübai ustası Ömər Xəyyamın məzarını ziyarət etmişdir. Müəllif həmçinin dahi şair Şeyx Fəridəddin Əttarın məzarını ziyarət etdiyini qeyd edir və onun məşhur "Məntiqi-teyr" məsnəvisi haqqında ətraflı məlumat verir. Burada da çox maraqlı faktlarla rastlaşmaq olur...

Cümşüd Muradov Əfqanıstanda tərcüməçi kimi iki dəfə olub. Birinci dəfə 1965-1968-ci illərdə, ikinci dəfə isə 1978-ci ildə Əfqanıstana göndərilmişdi. O, burada 1981-ci ilə qədər işləmişdir. Onun ikinci səfəri Əfqanıstanda dövlət çevrilişi vaxtına təsadüf edir. Artıq orada sovet hökumətinin 100 kontingenti vardı. Bu illər çox qorxulu, faciəli illər idi...

Kitabın bu hissəsini oxuyan oxucular burada da müəllif tərəfindən qələmə alınan mühüm hadisələr və faktlarla qarşılaşacaqlar...

Kitabın ən maraqlı yerlərindən biri də "Görkəmli şəxsiyyətlərlə bağlı xatirələrim" başlıqlı yazılardır. Bu hissədə görkəmli yazıçı, ədəbiyyatşünas, professor Mir Cəlal Paşayev, görkəmli yazıçılardan Səməd Vurğun, Şıxəli Qurbanov, Əlibala Hacızadə, Nəriman Həsənzadə, repressiyaya uğramış Seyid Hüseyn, mühacir şair Almas İldırım, akademiklər Heydər Hüseynov, Telman Əliyev və başqa şəxsiyyətlər haqqında çox maraqlı xatirələr toplanmışdır.

Müəllifin xatirələri içərisində əhatəli məlumat professor Mir Cəlal Paşayevlə bağlıdır. Çünki o, Mir Cəlal ilə bacanaqdır və ailəni yaxşı tanıyır.

Mir Cəlal Paşayev alimliyi ilə, gözəl yazıçılığı, böyük şəxsiyyətliyi ilə bərabər, həm də çox humanist, vətənpərvər, xeyirxah, sadə, təvazökar bir pedaqoq idi. Onun əsərləri də dil nöqteyi-nəzərindən çox zəngindir.

Bu hissədə Mir Cəlal Paşayevin müsbət xüsusiyyətləri, uşaqlarını çox sevən, gözəl ailə başçısı, gözəl tərbiyəçi, yüksək mədəniyyətli olması və bütün bunların da ailə üzvlərinə keçidi reallıqla təsvir edilir. Atalar demiş: ot kökü üstə bitər. Yəni valideyn necədirsə, övladları da o cürdür. Onun oğlanları akademik Arif və Hafis Paşayevlərin, nəvəsi Mehriban xanım Əliyevanın, Nərgiz xanım Paşayevanın və nəticələrinin uğurları, gördükləri işlər - təhsil müəssisələrinin və uşaq bağçalarının tikilməsi, körpə və kimsəsiz uşaqlara qayğı və s. göz qabağındadır.

Şəxsən mən Xarici Dillər İnstitutunda təhsil aldığım illərdə Mir Cəlal Paşayevlə yaxından tanış idim. Hərdən universitetə gəlib onunla görüşürdüm. Həmişə onunla görüşəndə vəziyyətimi xəbər alırdı, nəyə ehtiyacım olduğunu soruşardı. Əsərləri ilə maraqlanırdım.

Mən onun əsərlərinin vurğunu idim. Sadə dildə yazdığı oçerklərini, hekayələrini, romanlarını və filoloji əsərlərini dönə-dönə oxuyurdum. Hətta tərtib etdiyim və Prezident İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli sərəncamı ilə "Şərq-Qərb" nəşriyyatı tərəfindən 2007-ci ildə (təkrar nəşr 2012) nəşr olunan "Azərbaycan dilinin sinonimləri lüğəti" kitabında Mir Cəlalın da əsərlərindən nümunələr vermişəm.

Mir Cəlal Paşayevi yaxşı tanımayanlar, onun əsərlərinə bələd olmayanlar Cümşüd Muradovun "Unudulmaz xatirələr" kitabında yazıçı haqqında qələmə aldığı xatirəni oxuyandan sonra Mir Cəlal müəllimin necə gözəl, xeyirxah, qayğıkeş, insansevər, mədəni bir şəxsiyyət olduğunun şahidi olacaqlar.

Kitabda yuxarıda adlarını çəkdiyimiz və çəkmədiyimiz digər şəxsiyyətlər haqqında xatirələr də maraq doğurur.

Kitabda müəllifin dövri mətbuatda dərc olunmuş məqalələrində – "Unudulmuş sənətkar", "Klassik irsə soyuq münasibət", "Muzeylər", "Ac" şeiri kimindir?", "Muğam müsabiqəsi yüksək sənət tələbləri", "Sənədli hekayə" yazıları da verilmişdir.

Topluda həmçinin akademik Ziyad Səmədzadənin, filologiya üzrə elmlər doktoru Xatirə Bəşirlinin, memarlıq üzrə elmlər doktoru, professor Hacı Hacıəmi Atakişiyevin, tarix üzrə elmlər doktoru, professor Şahin Fazilin, filologiya üzrə fəlsəfə doktoru, əməkdar incəsənət xadimi Ayaz Vəfalının Cümşüd Muradov haqqında ürək sözləri də verilmişdir.

Ümumiyyətlə, "Unudulmaz xatirələr" kitabının necə bir dəyərli faktlarla zəngin xəzinə olduğu oxuyan hər kəsdə son dərəcə xoş ovqat yaradır.

Qəlbimdə kitabın müəllifi Cümşüd Muradovun nəcib insan, vətənpərvər ziyalı, xalqa, torpağa bağlı xeyirxah, əməksevər obrazı canlanır.

**Nəriman SEYİDƏLİYEV,**
**filologiya üzrə elmlər doktoru,**
**AMEA Nəsimi adına**
**Dilçilik İnstitutunun baş elmi işçisi.**